# AZƏRBAYCAN RESPUBLİKASI
# KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ

AQRAR TƏDQİQATLAR MƏRKƏZİ

# AZƏRBAYCANDA BADAM İSTEHSALI İLƏ BAĞLI

# A R A Y I Ş



Bakı – 2021

# MÜNDƏRİCAT

1. Sahə, istehsal və məhsuldarlıq göstəriciləri ........ 3
2. İdxal və ixrac göstəriciləri ........ 6
3. Qlobal istehsal, idxal və ixrac göstəriciləri ........ 7

## 1. Sahə, istehsal və məhsuldarlıq göstəriciləri

- 2020-ci ilin məlumatlarına əsasən Azərbaycanda badam bağlarının ümumi sahəsi 2.26 min hektar olub. Mövcud bağların 0.94 min hektarı və ya 41.7%-i bar verən yaşdadır *(Qrafik 1).*

**Qrafik 1. Azərbaycanda badam bağlarının sahəsi, min ha**




***Mənbə: Dövlət Statistika Komitəsi***

- Cəmi badam bağlarının 80.5%-i ənənəvi, 19.5%-i intensiv, 0.04%-i isə superintensiv bağlardır *(Qrafik 2).*

**Qrafik 2. Azərbaycanda badam bağlarının əkin strukturu, ha**




***Mənbə: Dövlət Statistika Komitəsi***

2020-ci ildə cəmi badam bağlarının 29.9%-i Abşeronun, 16.6%-i Qaxın, 11%-i Naxçıvan Muxtar Respublikasının, 8.1%-i Siyəzənin, 5.1%-i İsmayıllının, 4.1%-i Şabranın, 3.6%-i Füzulinin, 3.5%-i Xızının və 3.4%-i Xaçmazın payına düşüb *(Cədvəl 1).*

**Cədvəl 1. 2020-ci ildə badam bağlarının rayonlar üzrə bölgüsü**

| | Cəmi bağlar, ha | ondan bar verən yaşda, ha | İl ərzində yeni salınmış bağlar, ha |
|---|---|---|---|
| **Ölkə** | **2261.4** | **943.8** | **294.6** |
| Abşeron | 676.3 | 306.2 | 114.0 |
| Qax | 375.1 | 222.0 | 23.1 |
| Naxçıvan MR | 249.7 | 237.6 | 5.0 |
| Siyəzən | 183.3 | 42.0 | 5.3 |
| İsmayıllı | 116.4 | - | 21.3 |
| Şabran | 93.5 | 40.1 | 8.0 |
| Füzuli | 82.3 | 0.1 | - |
| Xızı | 80.0 | - | - |
| Xaçmaz | 76.8 | - | 69.2 |
| **Digər** | **328.0** | **95.8** | **48.7** |

***Mənbə: Dövlət Statistika Komitəsi***

2020-ci ildə badam istehsalı 2015-ci ilə nisbətən 36.4%, 2019-cu ilə nisbətən isə 1.6 dəfə artaraq 1.5 min ton olub *(Qrafik 3).*

**Qrafik 3. Azərbaycanda badam istehsalı, min ton**




***Mənbə: Dövlət Statistika Komitəsi***

- 2020-ci ildə badam istehsalının 52.1%-i Naxçıvan Muxtar Respublikasının, 20.8%-i Abşeron rayonunun, 13.8%-i Qax rayonunun, 4.8%-i Şabran rayonunun, 2.5%-i Bakı şəhərinin və 2.5%-i Ağsu rayonunun payına düşüb *(Qrafik 4).*

**Qrafik 4. Əsas istehsalçı rayonlarda məhsul yığımı, ton**




***Mənbə: Dövlət Statistika Komitəsi***

- 2020-ci ildə badamın məhsuldarlığı 2015-ci ilə nisbətən 38.1%, 2019-cu ilə nisbətən isə 1.9% azalaraq 15.6 sent/ha olub *(Qrafik 5).*

**Qrafik 5. Azərbaycanda badamın məhsuldarlığı, sent/ha**




***Mənbə: Dövlət Statistika Komitəsi***

- 2020-ci ildə badamın məhsuldarlıq göstəricisi Naxçıvan Muxtar Respublikasında, Sumqayıt şəhərində və Ağsu rayonunda ölkə üzrə orta göstəricidən yüksəkdir *(Qrafik 6).*

**Qrafik 6. Badamın əsas istehsalçı rayonlarda məhsuldarlığı, sent/ha**




***Mənbə: Dövlət Statistika Komitəsi***

## 2. İdxal və ixrac göstəriciləri

- 2020-ci ildə ölkəyə badam idxalı əvvəlki ilə nisbətən 6.6% azalaraq 654.8 ton olub. Badam idxalının 97.9%-i qabığı təmizlənmiş badamın, 2.1%-i isə qabıqlı badamın payına düşüb *(Cədvəl 2).*

**Cədvəl 2. Badamın idxal həcmi**

| | İdxal | |
|---|---|---|
| | **miqdarı, ton** | **məbləği, min ABŞ dolları** |
| **2016** | 419.2 | 1,807.3 |
| **2017** | 532.0 | 2,292.2 |
| **2018** | 631.8 | 3,565.0 |
| **2019** | 700.8 | 4,497.9 |
| **2020** | 654.8 | 3,777.7 |

***Mənbə: Dövlət Gömrük Komitəsi***

- Azərbaycana badam əsasən ABŞ-dan (93.1%), az həcmdə isə Çilidən (2.0%), və Özbəkistandan (1.7%) idxal olunub.
- Azərbaycandan badam ixrac olunmur.

## 3. Qlobal istehsal, idxal və ixrac göstəriciləri

FAO-nun məlumatına əsasən 2019-cu ildə təqribən 3.5 milyon ton qabıqlı badam istehsal olunub. Dünya üzrə istehsal olunan qabıqlı badamın 80%-dən çoxu 10 ölkənin payına düşüb *(Qrafik 7).*

**Qrafik 7. Qabıqlı badamın qlobal istehsal göstəriciləri, min ton**




***Mənbə: Faostat.org***

2019-cu ildə qlobal bazarda qabıqlı badam ixracının həcmi 333.3 min ton və ya 1.5 milyard ABŞ dolları, qabığı təmizlənmiş badam ixracı isə 897.2 min ton və ya 6.0 milyard ABŞ dolları olub *(Qrafik 9).*

**Qrafik 9. Dünya üzrə qabıqlı və qabığı təmizlənmiş badam ixracının həcmi**







***Mənbə: Trademap.org***

- Dünya üzrə qabıqlı badam ixracının 90%-dən çoxu ABŞ, Avstraliya, Çin, BƏƏ, Portuqaliya, İspaniya, Əfqanıstan, Özbəkistan, Tayland və Suriyanın payına düşüb.
- Qabığı təmizlənmiş badam ixracının isə 90%-i ABŞ, İspaniya, Avstraliya, BƏƏ, Almaniya, Hollandiya, İtaliya, Çin, Çili və Türkiyənin payına düşüb *(Qrafik 10).*

**Qrafik 10. Qlobal qabıqlı və qabığı təmizlənmiş badam ixracının ölkələr üzrə strukturu**







***Mənbə: Trademap.org***

- Dünya üzrə qabıqlı badam idxalında Hindistan (52.6%), Çin (19.6%), BƏƏ (2.9%), Səudiyyə Ərəbistanı (2.6%) və Türkiyə (2.4%) olmaqla ilk beşlikdədir. Qabığı təmizlənmiş badam idxalında isə Almaniya (12.2%), İspaniya (10.3%), İtaliya (6.4%), Fransa (5.7%) və BƏƏ-dir (5.4%).

**Kənd Təsərrüfatı Nazirliyi tabeliyində**

**Aqrar Tədqiqatlar Mərkəzi**

**tərəfindən hazırlanıb**


**Əlaqə:**

(+994 12) 599-08-88

www.atm.gov.az

info@atm.gov.az

Nizami küçəsi, 92
AZ 1010 Bakı, Azərbaycan


AQRAR TƏDQİQATLAR MƏRKƏZİ